# QURBANOV NOVRUZ ƏLİYULLAH OĞLU



Qurbanov Novruz Əliyullah oğlu 1975-ci il iyunun 2-də Ağstafa rayonunun Yuxarı Göycəli kəndində dünyaya göz açmışdır. 1992-ci ildə burada orta məktəbi bitirmişdir. 1993-cü il iyul ayının 3-də Novruz Ağstafa rayon Hərbi Komissarlığı tərəfindən Milli Orduya çağırılmışdır. O, 776 saylı hərbi hissədə xidmətə başlayır. Xeyli müddət hərbi təlimlərdə iştirak edir və sonra torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə öz qəhrəmanlığı ilə əsgər və zabit heyətinin dərin hörmətini qazanır. 1994-cü ilin mayında elan olunmuş atəşkəsin üstündən bir il keçməmiş ölkədə qarşıdurma başladı. 1995-ci il mart ayının 13-də bir qrup silahlı dəstə dövlət çevrilişinə cəhd planı hazırlamışdı. Ancaq Milli Ordumuzun səyi nəticəsində bu dəstə zərərsizləşdirildi. 17 mart 1995-ci ildə N.Qurbanov yaranan bu qarşıdurmada qəhrəmancasına həlak oldu. Yuxarı Göycəli kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Qurbanov Novruz Əliyullah oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Doğulduğu kənddə büstü qoyulmuşdur.